**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 36

Bakı şəhəri — «15» may 2015-ci il

**"İnsan orqanlarının köçürülməsi əməliyyatlarının təşkili barədə"**

Orqan transplantasiyasına ehtiyacı olan şəxslərin müəyyən edilməsi, insan orqanlarının köçürülməsi işinin təkmilləşdirilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1."İnsan orqanlarının köçürülməsi əməliyyatlarının təşkili üzrə Komissiya" yaradılsın və onun tərkibi təsdiq edilsin (əlavə olunur).

2. Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova tapşırılsın ki, "İnsan orqanlarının köçürülməsi əməliyyatlarının təşkili üzrə Komissiya haqqında Əsasnamə" 10 gün müddətində hazırlanaraq təsdiqə təqdim edilsin.

3.Komissiyanın iclasları Bakı şəhəri, Y. Səfərov küç. 17, ünvanında fəaliyyət göstərən Mərkəzi Neftçilər Xəstəxanasının inzibati binasında təşkil edilsin.

4. Mərkəzi Neftçilər Xəstəxanasının direktoru L.Seyidbəyovaya tapşırılsın ki, Komissiyanın fəaliyyəti üçün müvafiq şərait yaradılsın.

5. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsədzadəyə tapşırılsın ki, orqan transplantasiyasına ehtiyacı olan şəxslərin registrinin yaradılması təmin edilsin.

6. Əmrin icrasına nəzarət nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
"15" 05. 2015 tarixli
36 nömrəli əmri ilə
təsdiqlənmişdir

**İnsan orqanlarının köçürülməsi əməliyyatlarının təşkili üzrə Komissiyanın**

**TƏRKİBİ**

| | |
|---|---|
| 1. Nəsirov Şahlar Yahya oğlu | - Akad. Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının böyrək transplantasiyası şöbəsinin müdiri, sədr |
| 2. İsrafilov Anar Rasim oğlu | - Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçisi |
| 3. Həmidov İlham Məhərrəm oğlu | - Akad. Ə.Əliyev adına Həkimlərin təkmilləşdirmə İnstitutunun hemodializ laboratoriyasının müdiri |
| 4. Kazımi Mircəlal Mirkazım oğlu | - Mərkəzi NeftçilərXəstəxanasının cərrahiyyə və orqan transplantasiyası şöbəsinin müdiri |
| 5. Fərəcov Elnur İlham oğlu | - Mərkəzi Neftçilər Xəstəxanasının həkim nefroloqu |
| 6. Hidayətov Əlihüseyn Alişan oğlu | - Səhiyyə Nazirliyinin baş qastroenteroloqu |